# Azərbaycan sənətşünaslığının inkişafı və dekorativ sənətlərin tədqiqində Rasim Əfəndiyevin rolu

Professional mərhələ sənətşünaslıq birliyinin hadisələri və yüksək intellektual gərginliyi ilə o qədər zəngindir ki, bu haqda müfəssəl söhbət açmaq üçün yalnız bir məqalə deyil, bütöv bir kitab da azlıq edir. Azərbaycan sənətşünaslıq tarixi və xüsusilə onun professional mərhələsi inkişaf – tədqiq edilməyə ehtiyac duyulan əhəmiyyətli bir mövzudur. Ona görə də burada hər şeydən öncə sənətşünaslıq fikrinin ümumi istiqamətini və məntiqini izləmək, Azərbaycan sənətşünaslığının ən vacib, başlıca mövzuları, problemləri və metodları üzərində dayanmaq, imkan daxilində aparıcı milli amillərin sənətşünaslığın inkişafındakı xüsusi xidmətlərini qeyd etmək məqsədəuyğundur.

Azərbaycan mədəniyyətinin tarixi inkişaf modelinin prinsipial olaraq mürəkkəb quruluşu ölkənin coğrafi vəziyyəti və landşaft xüsusiyyəti ilə müəyyənləşir. Avrasiyanın kəsişdiyi yerdə yerləşdiyindən Azərbaycan nəinki bir çox mədəniyyətlərin qovuşduğu yer, həm də yüzilliklər ərzində müxtəlif yönlü mədəniyyət birliyinə daxildir. Təxminən bütün dünyanın dinləri, bir çox dövlət quruluşları, böyük və az tanınan etnoslar, müxtəlif dil qrupları və cürbəcür tayfaların sənət abidələri bu torpaqda öz izlərini qoymuşlar.

“Azərbaycan incəsənətinin əsas xüsusiyyəti ondan ibarətdir ki, o, heç bir ümumdünya tarixi dövründə klassik kamillik səviyyəsinə, bitkin formaya nail olmayıb və beləliklə, dünyanın heç bir bədii üslub bütövlüyü burada istənilən tərzdə təmsil olunmayıb (XVI əsrin miniatürü istisna edilməklə). Bu region etnomədəni nöqteyi-nəzərdən daim ciddi yerdəyişmələrlə səciyyələnib və onun taleyinə böyük mədəniyyətlərin nəhəng simbiozu olmaq vəzifəsi düşüb» (1,s. 96-97).

Artıq çoxdan sənətşünaslıq tarixi faktları və bədii obyektlərin ədəbi şərhini verən simbioz olmadan kənarlaşıb. İncəsənəti öyrənən bir sıra milli modellərdə sahə və regional tədqiqatların çevik sistemli əlaqələndirilməsi formalaşıb. İncəsənət haqqında ümum dünya təcrübəsinin Azərbaycan sənətşünasları tərəfindən mənimsənilməsi mütləqdir. Çünki bədii proseslərin modelləşdirilməsi və proqnozlaşdırılması, milli ideyaların estetik komponentlərinin axtarışı yalnız xüsusi metodların və metodikaların tətbiqi yolu ilə mümkündür.

Ölkənin elmi ədəbiyyatında Azərbaycan mədəniyyətinin rus, Avropa, türk, iran və hətta hind mədəniyyəti ilə qarşılıqlı təsirinin tədqiqatına aid çoxlu nümunələr olsa da, bu qarşılıqlı təsirin ümumiləşməsi nümunəsi yoxdur. Azərbaycan mədəniyyəti bütün bu qarşılıqlı əlaqələr nəticəsində nə ilə zənginləşib, nə itirib, bu gün özü-özlüyündə çoxəsrli qarşılıqlı təsirin nəticəsi kimi nə kəsb edir?

Sənətşünaslıq mədəniyyət forması kimi elm və incəsənət hüdudunda yaranıb. Müxtəlif mədəniyyətlərdə elmi və bədii fikrin tarixi təkamülü maraqlı ümumi qanunauyğunluğa tabe olur. Elmi və bədii axtarışların yolları əksər hallarda yaxınlaşır və kəsişirlər və çox təsadüfi halda dünyanın rasional və obrazlı görümü onun ahəngdarlığında bir-birinə qarışır.

Uzun müddət Avropa elmi «Şərq təfəkkür növünün» daxili və tarixi fərqlənmə mümkünlüyünü qoymurdu. Mövcud olan rəy Şərq mentalitetinə böyük astronomların və riyaziyyatçıların nailiyyətlərini bir tərəfə qoyaraq, az qala son dərəcə obraz – poetik əlamətli olmayanı aid edirdi.

Təsviri və dekorativ-tətbiqi sənətlərin tədqiqi sahəsində bu mərhələ intensiv inkişafla səciyyələndirilir, o da öz nəticəsini yaxın zamanda verəcəkdir. Burada həmçinin tarixi sənətşünaslığın yaranması da baş verir. Lakin onu memarşünaslıq sahəsindəki analoji prosesdən fərqləndirən odur ki, bu mərhələdə təsviri sənətin tədqiqat tarixi tətbiqi sənətin öyrənilməsilə ayrılmaz surətdə əlaqədardır. Bu Azərbaycan sənətşünaslıq tarixinin yaradılmasının ən vacib metodoloji şərtlərindən biridir. O zamanın zəngin incəsənət elminin işləri «incəsənət tarixi» və «bədii tənqid» prinsipi üzrə iki qrup təsnifatına uğrayır.

«İncəsənət tarixi» işləri qrupu sözün həqiqi mənasında təsviri və dekorativ yaradıcılıq arasında həmişə dəqiq hədd çəkmək mümkün olmayan təsviri və dekorativ sənət növlərinin, onların müxtəlifliyi və janrları tədqiqinin tarixi təşkil edir. Bu, hər şeydən öncə A.Qaziyevin «Orta əsr əlyazmalarının bədii-texniki materialları» (1966), R.Əfəndiyevin «Azərbaycanın peşə sənəti» (1966), R.Əfəndiyev və M.Tərlanovun





*Azərbaycan sənətşünaslığının professional inkişaf mərhələsi qısa tarixə malik olsa da ən zəngini, maraqlısı və bununla bərabər tədqiqat üçün ən mürəkkəbidir. Professional mərhələnin ən vacib cəhətlərindən biri istehsalın sosial təşkilatçılığının və sənətşünaslıq biliyinin yayılmasından ibarətdir. Bu mənada tədqiqat kollektivlərinin elmi-tədqiqat institutlarının, ali təhsil müəssisələrinin, muzeylər, layihə və bərpa təşkilatlarının qarşısında mühüm vəzifələr durur. Sənətşünaslıq nailiyyətlərinin populyarlaşmasında ixtisaslaşdırılmış jurnallar, ayrı-ayrı qəzet nəşrləri, bəzi radio və televiziya verilişləri əhəmiyyətli rol oynayırlar.*

birlikdə yazdıqları «Azərbaycan xalq incəsənəti» kitabları (1960), N.Rzayevin «Qafqaz Albaniyasının bədii keramikası» (1964) və N.Nəcəfovanın «XII-XV əsr Azərbaycanın bədii keramikası» (1964) monoqrafiyalarıdır.

Sadalanan nəşrlər əsasən tarixi və arxeoloji mənbələrə əsaslanır, yaxud məşhur Azərbaycan rəssamlarının və ustalarının əsərlərinin, sənətşünasların bədii sərgilərdə və yaradıcı emalatxanalarda əyani işlərinin nəticəsidir.

Adları çəkilən işlər arasında R.Əfəndiyevin (M.Nəcəfov və M.Tərlanovla birlikdə) «Təsviri sənət» (1962) adlı kitabı bu vaxta kimi Azərbaycan sənətşünaslığında tədris məqsədi ilə xarici incəsənət tarixinin sistematik şərhi sahəsində yeganə cəhddir. Qeyd etmək vacibdir ki, Azərbaycan dilində nəşr olunan bu vəsait müəlliflərin dünya incəsənət abidələri ilə tanışlıqdan sonra onların şəxsi təəssüratlardan istifadə olunmaqla yazılıb. Bu da öz növbəsində həmin nəşrlərin həm xronoloji, həm də coğrafi arealı əhatə etməklə bərabər vəsaitə şərq ölkələri incəsənət tarixinin şərhini və mətnə Azərbaycan incəsənəti üzrə bölmənin daxil edilməsinə şərait yaratmış, nəticədə əsərin əhəmiyyəti xeyli yüksəlmişdir.

«Təsviri sənət» kitabı Azərbaycan incəsənətinin öyrənilmə probleminin vacib sahələrindən birinə yönəlib. Bu, Azərbaycan bədii mədəniyyətinin dünya mədəni kontekstinə daxilolma məsələsidir. Problem bir neçə səpkiyə malikdir:

Birinci, Azərbaycan incəsənətinin qonşu xalqların bədii mədəniyyəti ilə qarşılıqlı əlaqəsinin öyrənilməsi; –ikinci, Azərbaycan incəsənətinə məkanca uzaq mədəniyyətlərin ideya və normalar təsirinin təhlili üçün, Azərbaycan mədəniyyətinin vesternizasiyası; –üçüncü, Azərbaycan incəsənətinin xarici alimlər tərəfindən öyrənilməsi; –dördüncü, Azərbaycan incəsənət əsərlərinin xaricdə işlənməsi; beşinci, ölkə alimlərinin Azərbaycan cəmiyyəti üçün dünya incəsənəti haqqında biliyin öyrənilməsi və translyasiyası. Onu təşkil edən bütün aspektlərlə bərabər problem, şübhəsiz, Azərbaycan incəsənətinin aparıcı elmi istiqamətlərindən biridir. Digər metodologiyalar arasında buna monoqrafiyanın son bölməsi ayrılıb.

XII-XIX əsrlərin memarlıq, təsviri və dekorativ-tətbiqi sənətlərinə həsr olunmuş fəsillərdə əsasən Ə.Salamzadə, R.Əfəndiyev və K.Kərimovun məlum məqalələrinin quruluş və informasiya həcmləri qorunub saxlanılıb.

«Azərbaycan incəsənəti» kitabı digər əsaslı kollektiv işlərə nisbətən ölkənin incəsənəti haqqında biliyin yığcam-geniş proses və mexanizmini qabarıq və əyani tərzdə təqdim edir. O cəhət də səciyyəvidir ki, müzakirə edilən tədris vəsaitinin müəllifləri universitet müəllimləri deyil, akademiya alimləridir. R.Əfəndiyevin Ə.Salamzadə, K.Kərimov, N.Rzayevlə birlikdə yazdığı kitabı, həmçinin «Azərbaycan incəsənəti» (1992) adı altında ikinci nəşri o qrup işlərə aiddir ki, onda iki və daha artıq bədii yaradıcılıq növü şərh olunur və Azərbaycan incəsənətinin müəyyən inkişaf konsepsiyası nümayiş edilir. Bu o deməkdir ki, belə tədris vəsaiti özlüyündə sənətşünaslığın bir neçə sahəsindəki araşdırmanın ümumiləşmə və sintez nəticəsi olmadan mümkün deyil.

1980-ci il Azərbaycan sənətşünaslığının inkişafında keçid mərhələsi hesab olunur. Azərbaycan incəsənətinin müxtəlif növ və dövrləri üzərində tədqiqat aparan müəlliflərin zərgər dəqiqliyi ilə işlədikləri əsərlər monoqrafiyalarda işıq üzü görürlər. Adları çəkilən müəlliflərin əsərləri müxtəlif incəsənət növlərinin ümumi və xronoloji mənzərəsini verirlər. Ölkənin incəsənət elmi haqqında irəliləyişinin müəyyən intellektual prosesinin göstəricisi kimi bu tədqiqatlar onu sübuta yetirir ki, ayrı-ayrı yaradıcılıq növlərinin morfologiyası artıq bu zaman əhəmiyyətli dərəcədə öyrənilmişdir.

R.Əfəndiyevin 1986-cı ildə nəşr olunmuş “Azərbaycanın sovet incəsənətinin təşəkkülü” adlı məqalələr toplusunun monumental və dekorativ-tət-

biqi sənətlər haqqında yazdığı bölmə ən az ideoloji təzyiqə məruz və məfkurəvi müəyyən edilib. O, tətbiqi sənətin inkişafını morfologiya və bədii-texnoloji müxtəliflik kateqoriyası vasitəsilə təsnif edir. Onun hazırladığı bölmə «Müasir Azərbaycanın memarlıq və incəsənəti» (1992) kollektiv səmərəli baxımdan fərqlənir. Burada R.Əfəndiyev öz həmkarlarından fərqli olaraq, bədii mədəniyyətinin yeni inkişaf təmayüllərini həssaslıqla tutmuş və dekorativ-tətbiqi sənətin icmalına 1980-cı illərdə yaradılmış xalça toxuculuğu, keramika və b. yeni əsərləri daxil etmiş, rəssam-tətbiqilərin gənc nəslinin ən əhəmiyyətli nümayəndələrinin yaradıcılığını təhlil etmişdir.

Azərbaycan incəsənətinin inkişafı bütün tarixi boyu dövrləşməsi, şübhəsiz, rəvan və eyni cür olmayıb. Görünür, incəsənətinin qədim dövrü daha çox uzanmış olub, onun zamanca qısalması isə erkən orta əsr dövründən başlayır. Özü də bu və ya digər dövrləşmə müddəti hesabatının başlanğıcı üçün həlledici mənanı həmişə Azərbaycan incəsənəti mənşəyinin öyrənilmə probleminin vəziyyəti olmuşdur. Bu halı artıq Azərbaycan incəsənətinin ən qədim və qədim tarixinin öyrənilməsi əyani şəkildə sübuta yetirdi.

Azərbaycan incəsənətinin dövrləşmə və onun mənşəyinin mənbəyini müəyyənləşdirən problemlə yalnız Rasim Əfəndiyev sıx təmasda olmuşdur. Onun «Daşlar danışır» (1980) kitabı neolit dövründən başlayaraq və XIX yüzilliyə qədər təsviri və dekorativ-tətbiqi sənətlərin bütün vasitələri və üsulları ilə xüsusən daş faktorunun bədii mənimsənilməsinə həsr edilib. Daşın materialı, onun plastik imkanları Azərbaycan ərazisində iz qoymuş müxtəlif dilli və tayfa mədəniyyətlərinin dünyagörüşü və bədii ənənələrinin predmetin akkumulyasiyasına göstərdiyi təsirlə baxılır. Qayaüstü rəsmlərin qədim inkişaf dövrü, dairəvi və relyefli heykəlləri haqqında danışarkən müəllif Azərbaycan incəsənətinin digər tədqiqatçılarının arxeoloji məlumatlarına və nəticələrinə əsaslanmışdır. Lakin erkən orta əsr dövründən baxmayaraq, R.Əfəndiyev yerli bədii ənənənin yaranma və formalaşma yollarını özünün şəxsi baxışı sisteminə əsasən qurur.

Bu sistemdə VII əsr Azərbaycan mədəniyyətində sonrakı dünyagörüşün, etnik və bədii dəyişikliklərin müəyyənləşdirilməsində həlledici rol oynayıb. Müəllif qeyd edir ki, erkən orta əsr dövründə bir çox yadellilərin basqınına baxmayaraq, Azərbaycan mədəniyyəti irəliləyən inkişaf vəziyyətində idi. Tədqiqatçı XII əsrə kimi Şamaxı və Ağdam rayonlarında tapılmış türk döyüşçülərinin monumental daş heykəllərini qanuni olaraq, onları bir zaman Azərbaycan ərazisində aşkarlanmış orijinal plastik sənət nümunələrindən biri sayır. Əlavə edək ki, xalq arasında «balbalam» adlanan bu daş heykəllər antik və orta əsr arasında başlıca əlaqələndirici hissə olaraq, Azərbaycan incəsənətinin köçəri və oturaq mədəniyyətinin nisbəti problemi nöqteyi-nəzərindən onun mənzərəsinin formalaşma inkişafında dəyişikliyə əsaslı imkan verir. Heykəllərin bədii əlamətlərini təhlil edərkən R.Əfəndiyev təsvir olunan döyüşçülərin vahid «etnik tip» olduqlarını qeyd edir ki, bu da türk etnik elementinin və onların daşıdıqları köçəri mədəniyyət haqqında növbəti inandırıcı sübutdur. İslamın yayılmasını müşayiət edən ərəb-müsəlman superetnosunun estetik proqramına aid olan, xalq sənətinə, xüsusən daşın bədii işlənməsinə təsir göstərən cəhət özünü bir neçə yüz il keçəndən sonra, X-XI əsrlərdə (132, s.9), islam dini yerli əhali arasında əsaslı kök atanda göstərir. Beləliklə, artıq IX-XI əsrlərdə daş ərəb-müsəlman bədii ənənəsinin rəsmi daşıyıcısı olub. Türk etno-mədəni elementi aləmin bədii mənzərəsini özündə, digər materialda – R.Əfəndiyevin və digər müəlliflərin bir sıra işlərində olduğu kimi, hər şeydən öncə xalça sənətində saxlamışdır.

Tədqiqatın vahid metodoloji estetik, əməli və tarixi-etnik meyarları R.Əfəndiyevə geniş elmi ümumiləşdirmələrə kimi qalxmağa imkan verir. Məhz onun işlərində orta əsr tətbiqi sənəti yaradıcılıq səviyyəsi kimi, morfologiya və estetikada nəzərdən keçirilir, bu yolla xalqın etnik siması əks olunur, birbaşa və bilavasitə etnik mədəniyyətin qaməti təsvir edilir.

Azərbaycan sənətşünaslığının hər bir inkişaf mərhələsi ölkənin bədii mədəniyyətinin müəyyən probleminin öyrənilməsini irəli sürür. Azərbaycan incəsənətinin inkişaf mənşəyinin, dövrləşməsinin və mərhələliliyinin nəzərdən keçirilən problemləri tədqiqat texnologiyası planında qnoseologiya ilə sıx əlaqədar olub, sənətşünaslıq cəmiyyəti tərəfindən heç də eyni zaman qoyulmurdu və «paket» üsulunun köməyi vasitəsilə həll edilmirdi. 1945-ci ildə yaradılan Azərbaycan EA Memarlıq və İncəsənət İnstitutunun ilk və başlıca məsələsi ölkə incəsənət tarixinin yaradılması olmuşdur. O implitiv olaraq, Azərbaycan incəsənətinin elmi əsaslarla dövrləşdirmə vasitəsilə formalaşdırmağı təklif etdi, çünki hər bir tarix hadisələrin xronoloji ardıcıllıqla qurulmasından başlayır.

R.Əfəndiyev tarixi ardıcıllıqla dekorativ-tətbiqi sənət inkişafının bütün müxtəlif növlü morfoloji proseslərinin şərhini verib. Onun «Azərbaycanın dekorativ-tətbiqi sənəti» işi Azərbaycan incəsənəti və memarlığının 1970-ci illərə kimi müddəti əhatə edən morfoloji tədqiqat mərhələlərinin sintez sahələrini açıqlayır. Azərbaycan MEA həqiqi üzvü Rasim Əfəndiyevin bir mütəxəssis kimi yetişməsində «Azərbaycan kostyumu» (1961) mövzusunun işlənməsi ilə əlaqədardır. Onun sonrakı elmi fəaliyyəti Azərbaycanın dekorativ-tətbiqi sənəti inkişafını qədim zamandan başlayaraq XIX əsrin əvvəlinə kimi ardıcıl şəkildə geniş mənzərəsini yaratmaqdan ibarətdir.

1960-1970-ci illər ərzində yerli və xarici mətbuatda R.Əfəndiyevin Azərbaycan dekorativ-tətbiqi sənətinin ayrı-ayrı növlərinə həsr olunmuş məqalələri çap edilib. Onlarda Azərbaycan incəsənət əsərlərinin hərtərəfli öyrənilməsinin nəticələri əks olunmaqla yanaşı, Azərbaycanın müxtəlif regionlarına edilmiş bir sıra elmi ekspedisiyaların materialları öz əksini tapıb. Bu materiallarda xalq bədii yaradıcılıq abidələrinin qeyd edilməsi ilə bərabər, onların elmi dəyərləri qiymətləndirilib. Həmin uzun müddətli tədqiqat prosesi əvvəllər ölkə tətbiqi sənətinin bütün morfoloji zənginliyinin açıqlanmasına yönəldilmişdir. Müəllifin Rusiya, Macarıstan, Türkiyə, Fransa, İsveçrə muzey və xüsusi arxivlərdə apardığı çoxillik əməyin bəhrəsi olaraq, «Azərbaycan bədii sənəti dünya muzeylərində» adlı xüsusi tədqiqatı yarandı. R.Əfəndiyevin axtarışlarının nəticəsində praktiki olaraq dekorativ-tətbiqi sənətin bir çox əsərləri ilk dəfə elm aləminə aşkarlanıb: xalçalar, bədii parçalar, metaldan olan bədii məmulatlar, keramika və b. Əvvəllər elmi ictimaiyyətə məlum olmayan və bədii yaradıcılıq abidələri tarixi sənətşünaslıq arsenalını zənginləşdirdi və Azərbaycan incəsənətinin tarixi yaranması haqqında təsəvvürü əhəmiyyətli dərəcədə tamamladı.

Lakin R.Əfəndiyev tədqiqatının mərkəzini «Azərbaycanın dekorativ-tətbiqi sənəti (orta əsrlər)» təşkil edir. Bu əsərdə Azərbaycan bədii sənətinin bütün növləri və növ müxtəlifliyi tam halda toplanıb. Müəllif tərəfindən artıq o zaman müəyyənləşmiş Azərbaycan incəsənətinin inkişaf mərhələlərinin dövrləşməsi seçilib. Bu dövrləşmədə bədii keramika və metal, bədii parça və naxışlar, xalça sənəti və daş plastikası nəzərdən keçirilib. Bütün tətbiqi yaradıcılıq növlərinin inkişafının xronoloji mənzərəsinin tamlığı əsasında R.Əfəndiyev tərəfindən onların qarşılıqlı təsirlərinin əlamətləri, ümumkonstruktiv-plastik, ornamental və kompozision prinsipləri, təsviri motivləri qanunauyğun yerləşdirilməsi, həmçinin bədii fəaliyyətin vahid növü kimi tətbiqi sənətin özünəməxsusluğu aşkarlanıb. Belə ümumiləşdirici nəticələr sırasında dekorativ-tətbiqi sənətin vahid üslubunu müəyyənləşdirməyi qeyd etmək, emblematikanın məna məzmunluğu və simvolikasını aşkarlamaq, XVI əsr məmulatlarının dekorunda islama qədərki mövzu və süjetlərin bərpasını göstərmək vacibdir.

Dekorativ-tətbiqi sənətin tarixi inkişaf mənzərəsinin qurulması sayəsində onun morfoloji dinamikası aşkarlanır, tarixi keçidlər zamanı dekorativ sənət sistemində tətbiqi yaradıcılığın ayrı-ayrı növlərinin növbə ilə yerinə yetirdikləri aparıcı rol aydınlaşır. R.Əfəndiyev tərəfindən dekorativ sənət əsərlərinin hazırlanmasında texniki və texnoloji üsullara əhəmiyyətli diqqət yetirilir. O, orta əsr sənətkarları tərəfindən bədii peşənin daş ixtisası üzrə məlumatların yaradılmasının yaradıcılıq prosesini təhlil edir.

Müəllif tərəfindən həmçinin Azərbaycanın dekorativ-tətbiqi sənətinin bədii üslubunun tarixi evolyusiyası izlənilir. Nəticədə qeyd olunur ki, artıq XII-XV əsrlərdə Azərbaycanın dekorativ sənətinin bütün növlərini birləşdirən vahid üslub mövcud idi, R.Əfəndiyev onu «bir qədər ağıryüklü qrafik uzaq şərq ənənəsinin əlaməti» kimi səciyyələndirir. XV əsrin sonunda o «daha zəngin və şərhinə görə sərbəst olan yeni üslubla» əvəzlənir. Müəllifin tətbiqi sənət predmetlərinin hazırladığı materialdan, konstruktiv və texnoloji xüsusiyyətlərdən asılı olmayaraq, Azərbaycan mədəniyyətinin estetik dünyagörüşündəki dəyişikliyi başa düşən, bədii üslubun xassələrinə nüfuz edən universal müşahidələri xüsusən dəyərlidir. Üslub yaranma problematikası, üslub eyniliyi anlayışının özü alim tərəfindən dekorativ yaradıcılığın kompozisiya, plastika, ornamental, süjet transformasiyası motivlərinin səthiliyinə keçirilir. Rasim Əfəndiyev ölkə tədqiqatçıları arasında yeganə mütəxəssisdir ki, Səfəvi dövrü məmulatlarını bəzəyən təsvir motivlərində dinamika təsirinə deyil, süjetin xarakterinə xüsusi məna yetirməyi əsas sayır. A.Qaziyev və K.Kərimovun işləri ilə yanaşı, R.Əfəndiyev tədqiqatının tamlığı təsdiqləməyə əsas verir ki, hər hansı bir sənət növünün morfologiyasının hərtərəfli və ardıcıl öyrənilməsi incəsənət tarixçəsini bədii üslub probleminə gətirib çıxarır.

Ölkənin elmi ənənəsində təsviri və dekorativ-tətbiqi sənətlərin tədqiqi morfologiya probleminin öyrənilməsində çox şaxələnmiş quruluşa malikdir. Memarlığın özünəməxsusluğu Azərbaycan memarlığının öyrənilmə problem tipologiyasının analoji birinciliyini müəyyənləşdirdi. Morfologiya problematikası təsviri və dekorativ-tətbiqi sənətlərdə üslubyaratma məsələsi ilə nə qədər qarşılıqlı əlaqədədirsə, memarlıq elmində də bədii üslub problemi tikinti tipologiyası ilə eyni dərəcədə əlaqədardır.

Ölkə incəsənətinin mənşəyi, dövrləşməsi və mərhələliyi inkişafının probleminin tədqiqat tarixi icmalını yekunlaşdırarkən, XX yüzillikdə Azərbaycan cəmiyyətinin özünü anlama mədəniyyətinin və tarixi inkişafının hansısa bir məntiqi paradoksunu sezmək

mümkün deyil. Hamıya məlumdur ki, qərb sənətşünaslarının «paniranizm», «pantürkizm» və b. konsepsiyaların etibardan salınması 1950-1970-ci illərin ölkə sənətşünaslarının əsas vəzifələri idi. Tam mənası ilə Azərbaycan incəsənətinin tarixi üzrə hər bir fundamental əsər «müsəlman incəsənəti», «İran incəsənəti», «türk incəsənəti» təyinatını ilkin təkzib etmə ilə başlayırdı. Xarici tədqiqatçılar isə bu anlayışlar içərisində Azərbaycan bədii irsini əridirdilər. Yalnız bizim alimlərin böyük zəhməti sayəsində indi bizim üçün adi olan «Azərbaycan memarlığı», «Azərbaycan incəsənəti» kimi anlayışlara yaşamaq hüququ, elmi vətəndaşlıq hüququ aldılar. Sonralar baş verənlər, görünür, inkarın dialektik qanununun təsiridir.

"Müstəqillik qazandıqdan sonra yalnız ictimai-siyasi mühitdə deyil, həm də elmi dairələrdə türk aləminin etnik və mədəni müxtəlifliyini ləğv etməyə yanaşma məşhurluq qazandı. Buna ən parlaq sübut dövlət dili haqqında qızğın mübahisələrdir. Lakin eyni zamanda keçidin digər özünü düşünmə tərəfi aşkarlandı, bu cəhət Azərbaycan etnos mədəniyyət arealını az qala Abşeron yarımadası həddinə kimi sıxışdırır. Belə təhlükəli ideyaların sahiblərindən bəzən eşidirik ki, XV-XVI əsrlərin Azərbaycan miniatürünün tədqiqi İranın daxili işlərinə qarışma deməkdir. Belə olan halda Kiyev Rus incəsənəti haqqında həcmli və zəngin illüstrasiyalı fəsilləri bu beynəlxalq nəzarətçilər necə qiymətləndirirlər? Rus incəsənəti tarixi üzrə hər bir nəşr bu illüstrasiyalarla açılır. Bu, Ukraynanın daxili işinə qarışma deməkdirmi?" 1, s.188.

Problemə sən qoyulmasını etnomədəniyyətə yanaşma köməklik edəcək. O zaman tədqiqat obyekti incəsənətin ərazisi deyil, orada yaşayan etnosun bədii mentallığı olacaq.

**Əsmər ABDULLAYEVA,**
**AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun aspirantı**

**Ədəbiyyat**

1.Абдуллаева Р., Саламзаде Э. Современное искусствознание: истоки, проблемы и методы. Баку, «Элм», 1997.s. 96-97.

**SUMMARY**

**THE EVOLUTION OF AZERBAIJANIAN ART HISTORY AND THE ROLE OF RASIM EFENDIYEV IN THE STUDY OF APPLIED ARTS**

Academician of Academy of Sciences of Azerbaijan, professor Rasim Samed oglu Efendiyev is one of the leading specialists working on the important problems and questions of the history of Azerbaijan art.

R. Efendiyev is the author of more than 150 scientific works and publications.

The specialist of our country as well as abroad know his works. Some of his works have been published in USA, England, France, Japan, Turkey, Hungary and other countries.

The publications of these materials has incontrovertibly proved the wealth and originality of Azerbaijan art and put it in the first ranks of the system of culture and art of the peoples of the East.

**РЕЗЮМЕ**

**ИНСТИТУТ АРХИТЕКТУРЫ И ИСКУССТВА НАН АЗЕРБАЙДЖАНА РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОГО ИСКУССТВОВЕДЕНИЯ И РОЛЬ РАСИМА ЭФЕНДИЕВА В ИЗУЧЕНИИ ДЕКОРАТИВНО-ПРИКЛАДНОГО ИСКУССТВА**

В статье исследуется одна из граней научного наследия одного из самых крупных азербайджанских ученых – искусствоведов: Академика Национальной Академии наук Азербайджана, доктора искусствоведения, профессора Расима Самед оглы Эфендиева. Всесторонний анализ научного наследия ученого представляет задачу чрезвычайно интересную и плодотворную. Углубленное изучение его творчества дает картину становления как самого Расима Эфендиева, так и в целом становления и развития современного Азербайджанского искусствознания. Так как основные вехи развития отечественной науки об искусстве совпадают с главными этапами творческой биографии ученого.

Введение в обиход подробного анализа его творчества, научных исследований дает ценнейший материал для изучения истории и методологии искусствоведения. В научных изысканиях ученого в неразрывном единстве переплетаются эстетические, художественные и исторические взгляды современной ему эпохи. Подробный и теоретически обобщенный анализ наследия ученого позволяет выявить наиболее важные и существенные проблемы Азербайджанского искусствознания.